Gülhüseyn Kazımlı
Vasif Quliyev

# Bülbülcan
## (Əbdülbaqi Zülalov)

Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB
BAKI 2017

# Bülbülcan həyatının 30 ilini Tiflisdə yaşamışdır

Əbdülbaqi Tiflisdə tez-tez özünün yaxın dostu və uzaq qohumu, görkəmli tarzən Sadıqcanla çıxış edirdi. Qeyd etmək lazımdır ki, Sadıqcan da Şuşada Xarrat Qulunun məktəbini bitirmişdi. Gözəl səsi olan, xanəndə olmaq həvəsi ilə alışıb-yanan Sadıqcanın səsi bir müddətdən sonra batır. Özünü bir çox musiqi alətlərində sınayan Sadıqcan sonralar tarı seçir və uzun illər müəyyən fasilələrlə Bülbülcanı müşayiət edir.

Tiflisdə o dövrün elə bir müsiqi məclisi olmur ki, Bülbülcan orda iştirak etməsin. O dövrdə xeyriyyəçilik konsertləri geniş yayılmışdı. Xasiyyətcə mülayim və mehriban bir insan olan Əbdülbaqi belə konsertlərdə tez-tez iştirak edirdi.

Səid Ünsizadənin redaktorluğu ilə Tiflisdə çap olunan "Ziya" qəzeti yazırdı: *"Bu yaxın vaxtda füqəra və miskinlərdən ötrü Tiflisdə bina olunan İran xəstəxanasının sərmayəsinə qüvvət və mənfəət vermək qəsdilə həmin ayın 8-də Tiflisin teatr imarətində ibrətnüma və fərəh-əfza, növbənöv görməli və eşitməli tamaşalar olacaq. Avropa və Şərq nəğmələrində xoşavaz xanəndələr vasitəsi ilə muğamat musiqisi icra olunacaq və Tiflis əhlinin dildadəsi olan xanəndə və sazəndələrdən Əbdülbaqi və Sadıq dəxi olacaq. Əvvəliminci dəfədir ki,Tiflis və İran müsəlmanları bu gün (bunun kimi) baisi-fəxr (fəxr eləməli) və tərəqqi olan payəyə (pilləyə) qədəm qoyacaqlar."*

O zamanlar teatr tamaşaları arasında fasilələr zamanı xanəndələrin və digər millətlərdən olan musiqiçilərin çıxışları da





verilirdi. Bu çıxışlar zamanı xanəndə Əbdülbaqinin sazəndə dəstəsi də tez-tez iştirak edirdi. Tiflisdə çıxan "Qafqaz" qəzeti 1886-cı il 162-ci nömrəsində yazırdı: *"Bu gün – 1886-cı il iyunun 22-də Arsurini teatrının binasında həvəskarlar tərəfindən tatar dilində M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası oynanılacaq.Tamaşanın fasilələrində Əbdülbaqinin sazəndə dəstəsi çalacaq."*

Bülbülcanın musiqi repertuarı çox geniş idi. O, Azərbaycan, gürcü, kumık və hətta rus dilində də mahnılar öyrənib-oxuyurdu. Musiqişunas V.Karqanov yazırdı: *"Tiflisin ən yaxşı xanəndəsi Əbdülbaqinin repertuarı hər bir bico və kintonun ürəyinə yol tapırdı. Xanəndə öz ifaçılıq məharəti ilə nəinki şəhər sakinlərini, hətta nazənin sakinləri belə, valeh edirdi."*

XIX əsrin ikinci yarısında Tiflisdə, ümumiyyətlə, Zaqafqaziyada Azərbaycan (türk) dili çox geniş yayılma arealına malik idi.Bu dildən qarşılıqlı anlaşma, ünsiyyət vasitəsi kimi bir çox xalqların nümayəndələri məmnuniyyətlə istifadə edir, erməni, gürcü, abxaz, Dağıstanda yaşayan azsaylı xalqların musiqi və nəğmə dillərinin sözlərinin çoxunu onun lüğət ehtiyatı yetərincə təmin edirdi. Ona görə də Azərbaycandan bura gələn sənət adamları-xanəndələr, aşıqlar bu cəhətdən özlərini sərbəst hiss edə bilirdilər. Rus şairi M.Lermontov *"təkcə tatar (türk) dilini bilməklə bütün Qafqazı gəzib – dolaşa bilərsən"* fikrini əbəs yerə deməmişdi ki?!

Bütün Qafqazda, elə Tiflisin özündə də Azərbaycan musiqisinin özünə belə geniş və dayanıqlı auditoriya qazanmasının əsas səbəblərindən biri də şox güman ki, bu amil idi...

1875–1905-ci illərdə ömrünün ən gözəl, yaradıcılığının ən məhsuldar dövrünü Tiflisdə yaşayan Bülbülcan xanəndəlik qabiliyyətini muğamın, yaratdığı və rəhbərlik etdiyi sazəndə dəstəsinin inkişafına yönəldir. Qısa bir zamanda Bülbülcanın və onun ansamblının şöhrəti Zaqafqaziyanın hüdudlarını aşır. İndi

bu görkəmli sənətkarı Orta Asiyada, Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən, İranda tanıyır və sevirdilər.

Bülbülcan bu illər ərzində bir çox muğamlarımızı öz tükənməz enerjisi və yaradıcılıq qabiliyyəti ilə zənginləşdirir, yeni-yeni çalarlar əlavə edirdi. O, "Şərq üçlüyü"nün tərkibini genişləndirib, ansambla çevirmişdi. Teatr fasilələri zamanı oxunan muğam dəstgahları arasında ifa olunan rənglər zamanı salonun akustikasını da əlavə edəndə ansambl bir orkestr kimi səslənirdi.

Bülbülcanın zəngulələri olduqca şaqraq idi, səs diapazonu və tembri istənilən muğamın ən zil şöbələrində ona əminliklə "gəzişmək" imkanı verirdi. Muğamın məzmununu, onun lirik-dramatik səciyyəsini açmaq, oxunan sözlərin, bəzən isə qısa olsa da, böyük fəlsəfi mənalar ifadə edən, böyük məzmun daşıyan və özünün süjet xətti olan mətni dinləyiciyə çatdırmaq təkcə xanəndəlik bacarığı deyil, həm də artistlik qabiliyyəti, səhnə professionallığı tələb edirdi. O dövrdə – Tiflisdə professional musiqinin sürərlə inkişaf etdiyi, Avropa vokal sənətinin, opera musiqisinin böyük axınla bu ölkəyə yol açdığı zamanlarda, şübhəsiz ki, təkcə təbiətin verdiyi nə qədər əzəmətli və ecazkar olsa da, səsə arxayın olmaq olmazdı. Və Bülbülcan da öz sənətkar fəhmi ilə bunları dərindən duyaraq həm öz üzərində, həm də ansamblı üzərində daim yaradıcılıq eksperimentləri aparırdı.

Böyük xanəndəmiz Cabbar Qaryağdıoğlu zəngulə vurmaq texnikasının sirlərini Bülbülcandan öyrəndiyini deyərmiş. F.Şuşinski yazır ki, o, "Çahargah", "Zabul" dəstgahlarının "Hisar", "Müxalif" şöbələrini elə coşqun zəngulə ilə oxuyurmuş ki, o dövrün musiqiçiləri ona "Hisar-Müxalif" deyərmişlər.

Cabbar Qaryağdıoğlu: *"Xarrat Qulunun tələbəsi, bütün Qafqazda məşhur olan xanəndələrdən Əbdülbaqi Zülalov "Zabul" dəstgahını çox təmtəraqla oxuyardı. "Hisar"a keçəndə isə elə bir səda ilə oxuyardı ki, heç kəs bunu bacarmazdı. Çünki "Hisar" zəngulə istəyən nəğmədir, Əbdülbaqi gözəl zəngulәli səsə malik olduğundan bu muğamı layiqincə ifa edirdi".*



30 illik Tiflis həyatı dövründə Bülbülcanın musiqi həyatı da daim yüksələn xətlə inkişaf etmişdir.

XIX əsrin ikinci yarısında o, müxtəlif millətlərin və xalqların yaşadığı, müxtəlif millətlərə və xalqlara məxsus musiqiçilər elitası arasında layiqli yer tutmuşdu. Həm Şərq musiqisinin görkəmli incisi olan muğamları, həm də güclü hafizəsi və çalışqanlığı sayəsində öyrəndiyi digər xalqların dəbdə olan musiqi nömrələrini çox zaman onların öz dillərində ifa etmək bacarığı Bülbülcana təkcə ifaçı kimi yox, həm də musiqi təşkilatçısı kimi etibar və etimad qazandırmışdı. Bütün bunların nəticəsində Bülbülcan və onun sazəndə dəstəsi ən yüksək səviyyədə təşkil edilən hökumət konsertlərinin daim iştirakçısı idi.

Ar/f 30035 l

Xeyriyyə konsertləri o dövr Tiflis həyatının ayrılmaz hissəsini təşkil edirdi. "Avropa", "Ermitaj", "Müctəhid", "Edem" və "Saray" bağlarında təşkil olunan heç bir xalq gəzintisi, xeyriyyə konsertləri onun iştirakı olmadan ötüşməzdi. Elə "can" kəlməsinin onların hər ikisinin-həm Əbdülbaqi Zülalovun, həm də Mirzə Sadığın adlarına əlavə edilməsi, əsasən, həmin xalq şənlikləri zamanı baş verirdi. Qeyd edildiyi kimi, yüksək səviyyəli məclislərə elə "yüksək səviyyəli" icazələr də lazım idi ki, bu icazələrsiz nə rus çarı III Aleksandrın, nə Nəsrəddin şahın, nə də böyük knyaz Mixail Romanovun (çar I Nikolayın qardaşı) Tiflisdəki yüksək məclislərinə heç kəs düşə bilməzdi.

Tarixi mənbələrdən məlumdur ki, rus çarı III Aleksandrın 1888-ci ildə öz ailə üzvləri ilə Qafqaza, o cümlədən, Bakıya etdiyi səfər zamanı Tiflisin "Müctəhid bağı"nda, 1900-cü ildə İran şahı Müzəffərəddinin Avropaya etdiyi səfəri zamanı yenə həmin şəhərin "Saray bağı"nda onun şərəfinə verilən ziyafətdə,

Azərbaycan Milli Kitabxanası

1904-cü ildə böyük knyaz Mixail Romanovun şərəfinə "Edem bağ-restoran"ında verilən ziyafətlərin hər birində Bülbülcan olduqca parlaq çıxışlar etmişdir və onların hər birinin kiçik də olsa, tarixçəsi var.

...1817–1864-cü illər Qafqaz müharibəsi sona çatmışdı. 1856-cı ildə 30 il apardığı mübarizədən sonra Şeyx Şamil silahı yerə qoyaraq ruslara təslim olmuşdu. Neçə vaxt idi ki, Rusiya heç kimlə müharibə aparmırdı. Çar III Aleksandr sülh tərəfdarı idi. Tərəfdarları ona "Sülh çarı" ləqəbi vermişdilər. Bu zamanlar Qafqazda da nisbi sakitlik hökm sürürdü. Əyalətlərdə məktəblər açılır, azsaylı xalqlara münasibətdə nisbətən güzəştlər tətbiq olunur, onların dini mənsubiyyətlərinin, adət və ənənələrinin, məişət özəlliklərinin qorunub-saxlanılmasına şərait yaradılırdı. İnamın, etiqadın təkcə silah gücünə deyil, eyni zamanda qarşılıqlı münasibətlərin yumşaldılması yolu ilə həyata keçirilməsi ön plana çıxarılırdı. Bu məsələlər III Aleksandrın daxili siyasətinin mühüm tərkib hissəsi idi.

Çarın öz ailəsi ilə Qafqaza, eyni zamanda Bakıya səfərinin əsasında da çar hakimiyyətinin və çar üsül-idarəsinin diyarın aboriqen xalqları ilə münasibətində Rusiyanın demokratik bir ölkə imicinin formalaşdırılmasına və dünya ictimaiyyətinə rus dövlətinin işğal olunmuş ərazilərdə möhkəmlənməsinin bir istiqaməti kimi təqdim olunurdu.

Çarı Qafqaz səfərində böyük bir heyət müşayiət edirdi. Bura nazirlər, generallar, rəssamlar, jurnalistlər, fotoqraflar daxil idi. 1888-ci ilin payızı artıq qapını döyməkdə idi. Rusiyada soyuqlar başlasa da, Qafqazda xoş, mülayim havalar davam edirdi. Çarın xüsusi qatarı yol boyu rus şəhərlərini və Şimali Qafqazı arxada qoyaraq Tiflisə yaxınlaşırdı. Sentyabrın 22-də ali qonağın xüsusi qatarı artıq Tiflis şəhərindəki Dedube stansiyasına çatmışdı. Çarı rəsmi numayəndə heyəti ilə bərabər aqsaqqallar, zadəganlar qarşılayırdılar.





Çarı muşayiət edənlərin arasında rus hərb tarixçisi, polkovnik Vasili Potto da var idi. O, "Çar ailəsinin Qafqaz səfəri" adlı kitab yazmışdı və həmin kitab 1889-cu ildə Qafqaz Hərbi Dairəsinin mətbəəsində çap olunmuşdu. Böyük fransız rəssamı Ziçi çarın Qafqaza səfəri zamanı onun təntənəli qarşılanma mərasimlərinə həsr edilmiş, yağlı boya ilə işlənmiş gözəl bir tablo yaratmışdı.

V. Potto yazır ki, çar Tiflisdə üç gün qaldı. Səfərin sonuncu günü şəhərin ən gözəl güşəsindəki "Müctəhid bağı"nda ali qonağın şərəfinə xalq gəzintisi təşkil edilmişdi. Çarı və onun ailə üzvlərini "Müctəhid bağı"na aparan yol mərkəzdəki Mixaylovsk küçəsindən başlayır, sonra Kürün üstündəki körpüdən keçib, Avlabarı arxada qoyaraq çayın sol sahilində yerləşən bağa doğru uzanırdı. Çarın keçəcəyi yollar çil-çırağa qərq edilmişdi, hər yerdə illüminatorlar yanır, benqal odlarından səmaya feyerverklər yüksəlirdi. Avlabarda bir çox millətlərin nümayəndələri, ən çox isə ermənilər yaşayırdı. "Avlabar" ərəb sözüdür. Hərfi mənası hasarın, daha doğrusu, qalanın kənarında deməkdir.

Bəs nə üçün bu bağa "Müctəhid bağı" deyirdilər? "Ədəbiyyat" qəzetinin 2 dekabr 2011-ci il tarixli nömrəsində professor Səid Nəfisi "Xəzərin o tərəflərinə səfərlərim" adlı yazısında qeyd edir ki, Gürcüstanın paytaxtı Tiflisin ən gözəl bir yerində "Müctəhid bağı" adlanan bir səfalı seyrangah vardı. Bu bağ vaxtı ilə Tiflis şəhərinin şiə-ruhani başçılarından birinin olmuşdu.

Çar, onun xanımı, Tiflis zadəganları bağın "Dərvaz darvazası"ndan içəri daxil olanda bura toplaşmış yeddi mindən çox insan onu böyük coşqu ilə qarşılayır, şərəfinə dualar oxuyurdular. V.Potto "Müctəhid bağı"ndakı xalq gəzintisini ən kiçik xırdalıqlarına kimi təsvir edir. Bu tədbirdə o dövrün ən tanınmış, üzdə olan müsiqiçilərinin iştirakını qeyd edir, musiqi nömrələrinin bir-birini əvəz etdiyini vurğulayır. Ziyafətin kulminasiya nöqtə-

sində, çarın və onun ailə üzvlərinin şərəfinə badə qaldırılarkən Əbdülbaqi Zülalov-Bülbülcan elə şaqraq zənqülələrlə oxuyur ki, bütün məclis əhli, o cümlədən, çar III Aleksandr və onun xanımı da bu səsə heyran qalır.

"Müctəhid bağı"ndakı bu çıxışından sonra Bülbülcana Tiflisin Kovalenski (çar canişinlərindən biri) – indiki Şota Rustaveli prospekti ilə çiynində qızıl quş və aynalı tüfəng olmaqla at sürməyə icazə verilir.

1900-cü ildə Avropa səyahətinə çıxan və Tiflisdə müvəqqəti qonaq olan Müzəffərəddin şahın şərəfinə təşkil olunmuş ziyafətdə də gözəl çıxış edən Bülbülcanı şah "Şiri-Xurşid" ordeni ilə təltif edir.

Azərbaycan muğamlarının, lirik musiqisinin Tiflis mühitində, ümumiyyətlə, bütün Qafqazda məşhur olmasında Əbdülbaqi Zülalovun və onun ansamblının da xüsusi payı var. 1904-cü ildə Böyük Knyaz Mixail Nikolayeviç Romanov Tiflisdə qonaq olarkən "Edem" adlı bağ-restoranda ona təntənəli qəbul düzəltmişdilər. Məclisdə Əbdülbaqi Zülalov da iştirak edirdi. "Çahargah" muğamını çox böyük coşqu, şaqraq zəngülələrlə başa vuran xanəndənin bu ifasından heyrətə gələn Böyük Knyaz barmağından iri qara brilyant qaşı olan üzüyü çıxararaq öz əlləri ilə xanəndənin çeçələ barmağına taxır. Bundan əlavə, ona iki bağlı kağız pul verməyi də tapşırır. Görkəmli xanəndə bu ali diqqətdən çox mütəəssir olur.

Bülbülcanın nə səs yazısı, nə də Tiflis dövrünün kinofotoxronikalarında təsviri var. Amma, bəlkə də, var, axı heç kim axtarmayıb, axtarılmayan bir şey necə tapıla bilər? Nə yaxşı ki, Tiflis Dövlət Kino, Teatr, Musiqi və Xoreoqrafiya muzeyində bir neçə afişası saxlanılır.

Qeyd etdiyimiz kimi, Bülbülcanın digər klassik xanəndələrimizdən fərqli olaraq səsi bizə gəlib-çatmayıb, onun təbliği ilə də heç əməlli-başlı məşğul olunmayıbsa da, şöhrəti, məşhurluğu o





biri xanəndələrimizdən heç də az deyil. Düzdür, elə müasirlərinin onun sənəti haqqında, şəxsiyyəti haqqında yazdıqlarından da çox mətləblər hasil olur. Yenə Firudin Şuşinskiyə müraciət edək: *"Bülbülcan fitri istedada, məlahətli səsə, təsirli nəfəsə və güclü zənguləyə malik bir müğənni olmuşdur. Səsə dinamik boyalar verməkdə, bir neçə forma və mərtəbədə şaqraq zəngulələr vurmaqda seçilən Bülbülcana çoxları həsəd aparmışdır. Ümumiyyətlə, xanəndəlik sənətində zəngulə vurmaq əsas amillərdən biridir. Elə bir muğamımız yoxdur ki, orda zəngulə olmasın".*

Bülbülcan 1905-ci ilə kimi Tiflisdə yaşayır, sonra yenidən Şuşaya qayıdır. Deyilənə görə, ermənilərin qətlə yetirdikləri qardaşının uşaqlarının tərbiyəsi ilə Şuşadan yüzlərlə kilometr uzaqda yerləşən Tiflisdə məşğul olmağın mümkünsüzlüyü, digər tərəfdən də onların Tiflisdə də azğın hərəkətləri xanəndəni geriyə dönməyə vadar edir. Bir müddət Şuşada, bir müddət isə Aşqabadda yaşayır, qızı Əzizənin ailə həyatının uğurlu olmaması da onu ciddi narahat edir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra o, birdəfəlik Bakıya köçür, qısamüddətli "Şərq musiqi kursları"nda ("Şərq konservatoriyası"nda) müəllimlik edir, 1923-cü ildə isə Üzeyir Hacıbəyli hələ Tiflisdən tanıdığı və sənətinə yüksək qiymət verdiyi böyük xanəndəni özünün təşkil etdiyi Azərbaycan Dövlət Türk Musiqi Məktəbinə muğam müəllimi kimi çalışmağa dəvət edir.

Üzeyir Hacıbəyli məqalələrinin birində Qafqaz millətləri içərisində tanınmış və beynəlmiləl truppa yaratmış musiqiçilər arasında Əbdülbaqinin də adını çəkərək yazmışdır: *"...Tarzən Sadıqcanların, Əbdülbaqilərin adları Qafqazın hər yerində məşhur olub, beynəlmiləl mahiyyətdə ad qazanmışlar".*

Xalq incilərinin qeydiyyata alınmasında, xalq mahnı yaradıcılığının toplanmasında müstəsna xidməti olan Ağalar bəy

Əliverdibəyov xatirələrində yazır: *"1899–1904-cü illərdə Üzeyir Hacıbəyli Qori Müəllimlər Seminariyasında təhsil alanda mən onun publisistikası ilə tanış oldum. O, Şuşanın məşhur xanəndəsi Əbdülbaqi Zülalovdan nəinki Qarabağ xanəndələri, eləcə də bütün Qafqaz müsiqiçiləri haqqında çox şey öyrəndiyini iftixarla yazırdı."*

Əbdülbaqinin layiqli, onun yolunu davam etdirən şagirdləri olmuşdur. Cabbar Qaryagdıoğlunu, Məşədi Məhəmməd Fərzəliyevi, Şəkili Ələsgəri, Seyid Şuşinskini bu sıraya aid etmək olar.

70 illik xanəndəliyi və müəllimliyi dövründə Əbdülbaqi Azərbaycan mədəniyyətinə və incəsənətinə layiqli töhfələr vermiş, adı isə hafizələrdən silinməmiş, bir növ şifahi xalq ədəbiyyatı kimi öz axarı ilə yaddaşlardan-yaddaşlara keçərək bu günümüzə çatmışdır.

Yaşlı vaxtında belə, ictimai fəaliyyətdən kənarda qalmamış, artist truppalarının tərkibində respublikanın rayonlarına qastrol səfərlərinə getmiş, Qurban Pirimovla bərabər axşamlar bulvarda xeyriyyə konsertləri vermişdır. Şahlar Baba Şuşalı "Mən tanıyan Xan əmi" kitabında yazır: *"Bülbülcanın dəstəsinin tərkibində olduğu təşviqat briqadasında Qurban Pirimov da 1921-ci ildə Ağdama gəlmisdi. Onlar bura gələn kimi gənc Xanı sorusurlar. Yerli fəallardan biri bunu Xana çatdırır, o da tez onlarla görüşə gedir. Xan əmi söyləyərdi ki, Əbdülbaği Zülalov – Bülbülcan haqqında çox eşitmisdim. Atam onun vurğunu olub. Bülbülcan bir vaxtlar Tiflisdə öz əzəmətli səsi ilə rus çarı III Aleksandrı məftun etmişdi. İranın rəhbəri Müzəffərəddin şah isə onu "Şiri-Xurşid" ordeni ilə təltif etmisdi. Yaşı 80 olsa da, cavanlıq ehtirası hələ canından çıxmayan belə bir muğam ustasını ziyarət etmək mənim üşün cox xoş idi. Xan xeyli vaxt o briqada ilə Azərbaycanı gəzir. Ayrılarkən Bülbülcan ona deyir:*

*– Boğazını qoru, orda Allah əmanəti var".*





O, Sovet hakimiyyəti illərində "Əmək qəhrəmanı" adına layiq görülmüşdür. Müstəqillik illərində – 1992-ci ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında yubileyi qeyd olunmuş, Şuşadakı musiqi məktəbinə onun adı verilmiş, Bakı Beynəlxalq Muğam Mərkəzində büstü qoyulmuşdur.

Yubiley gecəsində Bülbülcanın nəticəsi Yusif Zülalov ailə üzvləri adından çıxış edərək demişdir: *"İlk növbədə, mən böyük xalqımın gözəl adəti qarşısında baş əyirəm, təşəkkürümü bildirirəm, ona görə ki, o öz layiqli övladlarını heç vaxt unutmur, yaddan çıxarmır.*

*Bu gün Əbdülbaqinin anadan olmasının 150 illik yubileyi gecəsində iştirak edənlərə, bu məclisi təşkil edənlərə, təşəbbüs göstərən mədəniyyət və incəsənət xadimlərinə, başda xalqımızın sevimlisi, mədəniyyət naziri hörmətli Polad bəyə bütün Zülalovlar ailəsi adından təşəkkürümü bildirirəm.*

*Əbdülbaqi atamın ata babasıdır. Babam danışırdı ki, təbiət atama yaxşı nə vardısa, hamısını bəxş etmişdi. Güclü və məlahətli səslə bərabər gözəl xasiyyəti də var idi. O, böyük ürəkli Hacı Zeynalabdin təbiətli insan idi.*

*O, həmişə xeyriyyə konsertlərinin təşəbbüskarı olardu. Tiflisdə Sadıqcanla birlikdə tez-tez xeyriyyə konsertləri verərdi. Kasıblara həmişə əl tutardı. Belə ki, heç vaxt kasıb toylarından pul götürməzdi. Kifayət idi ki, bir məhəllənin, ya mahalın ağsaqqalı gəlib zəmanət versin və desin ki, bəy, filankəs çox qeyrətli, namuslu oğlandır, amma toy etməyə imkanı yoxdur. Gedərsinizmi? Cavabında deyirdi ki, gedin deyin filan vaxtı hazırlaşsın, kəndlərə xəbər versin, gələcəyəm.*

*Məclislərdə özünün alicənab davranışına görə xüsusi rəğbət qazanmışdı. Onda yüksək səhnə mədəniyyəti vardı. Gözəl, səliqəli və zəngin geyinməyi sevərdi. Həmişə boz rəngli libas geyinər və gümüşü papaq qoyardı. Buna görə də ona "Boz bülbül" deyərdilər. Döşündə Müzəffərəddin şahın verdiyi "Şiri-*

*Xurşid" ordeni, belində qızıl kəmər, barmaqlarında üc-dörd qiymətli üzük olardı.*

*Möhkəm hafizəsi vardı. Fars, rus və gürcü dillərini mükəmməl bilirdi. Məclisdəki qonaqları nəzərə alıb, müxtəlif dillərdə oxuyardı. Buna görə də dahi Üzeyir bəy ona "Qafqaz xalqlarının xanəndəsi" adını vermişdi.*

*O zamanlar bəylərin, xanların, zadəganların, hətta şahların məclisləri onsuz olmazdı. İran şahının hər il keçirdiyi musiqi yarışlarında həmişə birinci yerə layiq görülərdi.*

*Əbdülbaqi övladları incəsənətin müxtəlif sahələrində çalışır, bu ənənəni yenə də davam etdirirlər.*

*Məsələn, Məmmədağa bəy Tiflis teatrının əsasını qoymuş, yaradıcısı olmuşdur. Əzizə xanım və Sona xanım Azərbaycan səhnəsində ilk qadın aktyorları olmuşlar. Əli, Qəmbər Zülalov qardaşları bütün ömürlərini opera sənətinə həsr etmişlər.*

*Sevinirəm ki, bu gün də Zülalovlar arasında musiqişünas, teatr tarixçisi, kinooperator var".*

Böyük sənətkar 1927-ci ildə Bakıda vəfat etmişdir.